Żeyqəm VÜQAR

# Yazın baş daşıma

*Oğlanlarıma*

Xəyallara uyan çağım deyil ki,
Başım daşdan-daşa dəyib gəlmişəm.
Bu həyat dediyin ibrət dərsidi,
Könül qapıların döyüb gəlmişəm.

Bir ömür nədi ki, bir içim sudu,
Gözünü açırsan altmışdan keçir.
Fəsillər ələyir beləcə ömrü,
Hər ömür o payız, bu qışdan keçir.

Əcəl talayacaq bir gün ömrümü,
Bədhaxlar pünhanda əl çalacaqlar.
Bu ölüm mənimçün bir son olacaq,
Bədhaxlar bir azda alçalacaqlar.

Gözünüz dolmasın düşmən önündə,
Düşməni qabağa ötürməyin siz.
Dostlar ətrafınızda cəm olmayınca,
Mənim cənazəmi götürməyin siz.

Hazırdı, ay oğul, məzar yerim də,
Bircə məzarımı qazan istəyir.
Mənim başdaşıma bircə misrayla,
Mənim taleyimi yazan istəyir.

Məzarda gözümə, ovcuma töküb,
Vətən torpağını toxum eyləyin.
Toprağa kök atım, göyərim, qalxım,
Məni bu torpağa yaxın eyləyin.

Yazın başdaşıma ömrün etdi pay,
Yazın başdaşıma söz adamıydı.
Şairlər Allaha yaxın olurlar,
Yazın bu Allahın öz adamıydı.

# Mənim o dağlarda xatirəm qalıb

Unuda bilmirəm o dağları mən,
Bulaqlar çağlardı, qayalar həmən.
Yenə şeh içində o yastan, çəmən,
Ölüncə yadımdan silinməyəcək,
Gözlərim önündə bir aləm qalıb,
Mənim o dağlarda xatirəm qalıb.

Uşaqlıq çağlarım o dağ döşündə,
Əmlik quzularım el örüşündə.
Özüm qayalarla ilk görüşümdə.
O vaxt unutmuşam indi bilirəm,
Yoxuşda çəkili bir şələm qalıb,
Mənim o dağlarda xatirəm qalıb.

O qumlu dərələr çörək ağacım,
O dağlar əzəldən halallıq tacım.
Qaldı o yerlərdə oçağım, saçım,
Məni çox incitdi , sıxdı ehdiyac.
Bir az yaddaşımda kədər, qəm qalıb,
Mənim o dağlarda xatirəm qalıb.

Külək alaçığı dağıdıb, yıxıb,
Qaya həsrətimi köksünə sıxıb.
Bir kaha döşündə yadımdan çıxıb,
Yarımçıq şeirimdə gözləri olan,
Yazdığım bir dəftər, bir qələm qalıb,
Mənim o dağlarda xatirəm qalıb

Burda qum üstünə yazdığım sevgi,
Burda isdisinə qızdığım sevgi,
Burda qəbirini qazdığım sevgi,
Eh nələr, eh nələr danışım axı.
Dərdlərim sinəmdə elə cəm qalıb,
Mənim o dağlarda xatirəm qalıb.

**Ədəbiyyat qəzeti.- 2023- cü il.- 7 yanvar.- S. 19.**